# Könüllü gənclər təltif edilib






Sumqayıt şəhər Gənclər evində gənc könüllülər üçün bədii-əyləncəli tədbir təşkil edilib.

Şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə müxtəlif sahələri təmsil edən könüllülərin, hökumət və qeyri-hökumət gənclər təşkilatlarının nümayəndələri iştirak etmişlər. Şəhər Gənclər və İdman Baş İdarəsinin əməkdaşı Ceyhun Hüseynov və Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Sumqayıt şəhər şöbəsinin sədri Tərlan Hacızadə ölkəmizdə həyata keçirilən uğurlu dövlət gənclər siyasətindən söhbət açıblar. Tədbirdə Sumqayıtda gənclərin hərtərəfli inkişafına yaradılan şəraitdən, yeniyetmə və gənclərin bilik və bacarıqlarının dəstəklənməsindən də danışılıb. Qeyd olunub ki, əsas fəaliyyət istiqamətlərindən biri gənclər arasında könüllülük fəaliyyətinin təşviq edilməsidir.

Gənclər klubunun idarə heyətinin bir qrup üzvü fəaliyyətinin bir illiyi münasibətilə şəhər Gənclər və İdman Baş İdarəsinin fəxri fərman və hədiyyələri ilə təltif olunub.

Tədbirdə Sumqayıt Musiqi Kollecinin tələbələrinin, istedadlı və yaradıcı gənclərin ifasında musiqilər səsləndirilib, şeirlər oxunub.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2019.-2 iyun.- S.7.